**Elşən Ellaz oğlu İsmayılov**
**Bakı Biznes Universiteti, müəllim.**
**E-mail:ismayilov.elsan92@mail.ru**
**UOT: 338.43;JEL: Q10;Q29.**

# Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qarabağ və Qazax-Tovuz iqtisadi rayonlarında yaradılmış aqroparkların səmərəliliyinin mövcud vəziyyəti

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə regionlarda aqroparkların inkişaf istiqamətlərinin və prioritetlərinin tədqiq olunmasıdır. Bilirik ki, respublikanın 11 iqtisadi rayonunda nəzərə çarpacaq dərəcədə aqrar sahədə quruculuq işləri həyata keçirilir və bu işlərdə aqroparkların rolu vacib əhəmiyyət daşıyır. Regionların inkişafı baxımından aqroparkların formalaşdırılmasının dövlət və özəl sektor tərəfindən dəstəklənməsinin vacibliyi əsaslandırılır. Qeyri-neft sektorunun inkişafında rolu baxımından aqroparkların fəaliyyətinin səmərəliliyinə və prioritetlərinə baxılmışdır. Gələcək perspektivdə regional inkişafı kontekstində işğaldan azad olunmuş ərazilərdə aqroparkların formalaşdırılmasına dair tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası – tədqiq olunan problemlər üzrə müasir dövrdə mövcud vəziyyətdən yanaşmaqla, təhlil və sintez, müqayisə metodlarından, həmçinin aqroparkların formalaşdırılmasının hazırkı mexanizmlərinin və strateji yanaşmalarının inkişaf etdirilməsinə dair nəzəri-metodoloji yanaşmalar, həmin problemlər barədə alim və tədqiqatçıların əsərlərindəki müddəalardan ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiq olunmuş elmi-praktiki nəticələrdən Respublikamızda aqropark fəaliyyətinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi məqsədilə yeni proqramların və təkmilləşdirmə tədbirlərinin hazırlanmasında və tətbiqində istifadə oluna bilər. Tədqiqatın nəticələri – gələcək perspektivdə işğaldan azad olunmuş ərazilərin potensialı da nəzərə alınmaqla, Respublikamızda aqroparkların yaradılmasının daha səmərəli və məhsuldar mexanizmlərinin hazırlanması və tətbiqi ilə bağlıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda verilən materiallar respublikamızda aqroparkların formalaşdırılmasının mövcud vəziyyətini təsəvvür etməyə imkan verir və buna görə də originallıq şübhə doğurmur. Əsas elmi yenilik aqroparkların formalaşdırılmasına müasir prizmalardan və çağırışlardan, xüsusilə işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi prioritetlərindən yanaşmaqla, ölkədə aqropark fəaliyyətinin əsas mexanizmlərinin təkmilləşdirilməsi prioritetlərinə yeni yanaşmaların vacibliyinin əsaslandırılmasıdır.*

***Açar sözlər:*** *aqropark, işğaldan azad olunmuş ərazilər, Abşeron-Xızı iqtisadi rayonu, Dağlıq Şirvan iqtisadi rayonu, Gəncə-Daşkəsən iqtisadi rayonu, Qarabağ iqtisadi rayonu, aqroparkların formalaşdırılması istiqamətləri, regionların inkişaf perspektivləri.*

## Giriş

Azərbaycan iqtisadiyyatı üçün formalaşan yeni çağırışlar fonunda qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, bu sahədə müqayisəli üstünlüyə malik sahələrin üzə çıxarılması, yerli sahibkarların prosesdə aktiv iştirakçılığının təmin edilməsi ölkənin gələcəyi üçün mühüm əhəmiyyət daşımaqdadır. Başqa sözlə yeni iqtisadi konyuktur daha çevik və effektiv yanaşma tələb edir. Hazırda qlobal sferada iqtisadiyyatın ayrı-ayrı sferaları arasında daha təkmil kordinasiya təmin edəcək modellərdən istifadə olunur. Bu məqsəd ilə Azərbaycanda da müəyyən addımlar atılır. Hazırda hökumətin də iştirakçılığı ilə ölkə üzrə 43 aqroparkın yaradılması işləri yekunlaşmışdır. Lakin, aqropark modelinin yeni təşəkkül tapması və tam təkmil formasını almaması bu istiqamətdə tədqiqatın aparılmasını gərəkdirən səbəb hesab edilir. Buna əsasən qeyd edə bilərik ki, Azərbaycanda yaradılan aqroparkların səmərəliliyinin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müəyyən edilməsi əhəmiyyətli rola malikdir.

## Regionlarda aqroparkların formalaşdırılmasının səmərəliliyinin qiymətləndirilməsi

Birinci olaraq Abşeron-Xızı iqtisadi rayonunda yaradılmış aqroparkların siyahısına diqqət yetirsək görərik ki, bu iqtisadi rayon Sumqayıt şəhəri, Abşeron və Xızı rayonlarını əhatə etsə də ilkin mərhələdə yalnız Abşeron rayonu ərazisində aqroparkların yaradılması prosesi həyata keçirilmişdir. Həmin aqroparklar “Grand-Agro” MMC və “İnvestel Group” MMC aqroparklarıdır. Abşeron rayonu ərazisində Grand-Agro” MMC aqroparkının fəaliyyəti üçün 3263,4 hektar ərazi ayrılmışdır və bu ərazinin 2673,2 hektarı (81,9%) ümumi əkinə yararlı sahələr olmaqla intensiv bağçılıq təsərrüfatı (zeytun, badam) və zeytun emalı zavodu təyinatlı olmuşdur. Həmçinin bu aqroparka 500 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da, 402 nəfər faktiki işçi sayı mövcuddur. Abşeron rayonu ərazisində yaradılmış “İnvestel Group” MMC aqroparkının (Qazax və Abşeron rayonları) fəaliyyəti üçün 1041,16 hektar ərazi ayrılmışdır və bu ərazinin 1030,6 hektarı (98,9%) ümumi əkinə yararlı sahələr olmaqla əkinçilik, bağçılıq, logistika, çeşidləmə və qablaşdırma təyinatlı olmuşdur. Həmçinin bu

aqroparka 70 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da, 120 nəfər faktiki işçi sayı mövcuddur. Abşeron-Xızı iqtisadi rayonunda yaradılmış aqroparkların fəaliyyət sahəsi seçilən zaman regionun ixtisaslaşması amili nəzərə alınmışdır. Beləki, görürük ki, 2015-ci illə müqayisədə 2020-ci ildə dənlilər və dənli paxlalıların istehsalında 4,3 dəfə, buğda istehsalında 5,6 dəfə, tərəvəz istehsalında 12,8 dəfə, meyvə və giləmeyvə məhsullarının istehsalında 1,4 dəfə, üzüm istehsalında, 1,9 dəfə, kəsilmiş çəkidə ət istehsalında 1,4 dəfə, süd istehsalında 1,04 dəfə, yumurta istehsalında 2,2 dəfə artım olmuşdur. Ancaq, müvafiq dövrlərdə kartof istehsalında 0,11 dəfə, bostan məhsulları istehsalında 0,3 dəfə, yun istehsalında isə 0,16 dəfə azalma olmuşdur. Aqroparkların fəaliyyəti qısa dövrü əhatə etsə belə iqtisadi rayonda məşğulluğa müsbət təsir etmişdir. Belə ki, aqroparkların fəaliyyəti nəticəsində 522 nəfər işlə təmin olunmuşdur ki, 2020-ci ilin statistikasına əsasən bu göstərici iqtisadi rayonun məşğul əhalisinin 0,19%-ni təşkil etmişdir. Bu isə məşğulluğa təsirin faiz etibarı ilə az olmasına baxmayaraq gələcəkdə yeni imkanların nəzərə alınmasını şərtləndirir.

İkinci olaraq isə, Dağlıq Şirvan iqtisadi rayonu ərazisində yaradılmış aqroparkların siyahısına diqqət yetirsək görərik ki, bu iqtisadi rayon Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarını əhatə edir. Ancaq bu iqtisadi rayonda aqroparkların yaradılması coğrafiyasına diqqət yetirsək görərik ki, ilkin mərhələdə Ağsu, Şamaxı və İsmayıllı rayonları ərazisində aqroparkların yaradılması həyata keçirilmişdir. Ağsu rayonunu ərazisində yaradılan aqroparklara "Ağsu Aqropark" QSC, "Qarabağ taxıl" MMC (Ağcabədi, Beyləqan, Ağsu və Kürdəmir), və "Süsən Aqro" MMC daxildir. Şamaxı rayonu ərazisində isə "Agro Dairy" MMC (Hacıqabul və Şamaxı), "Azersun Şamaxı Aqropark" (Hacıqabul və Şamaxı), "Agro Fresh" MMC aqroparkları yaradılmışdır. İsmayıllı rayonu ərazisində isə "Buta-Group" MMC aqroparkı yaradılmışdır. Ağsu rayonunu ərazisində yaradılan "Ağsu Aqropark" QSC aqroparkı 2018-ci ildə yaradılmışdır və aqroparkın fəaliyyəti üçün 1763,9 hektar ərazi ayrılmışdır və bu ərazinin 1247 hektarı (70,7%) əkinə yararlı ərazilər olmaqla heyvandarlıq (ətlik və südlük) və əkinçilik təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 200 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 193 nəzər işlə təmin edilmişdir. "Qarabağ taxıl" MMC Ağcabədi, Beyləqan, Ağsu və Kürdəmir rayonlarının ərazisini əhatə etməklə 2012-ci ildə təşkil edilmişdir. Aqroparkın fəaliyyəti üçün 5288,3 hektar ərazi ayrılmışdır və bu ərazinin 5250 hektarı (99,3%) ümumi əkinə yararlı sahələr olmaqla əkinçilik təyinatlı yaradılmışdır. Bu aqroparkda 130 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da daha çox 151 nəfər işlə təmin olunub. Ağsu rayonu ərazisində yaradılmış "Süsən Aqro" MMC aqroparkı isə 2011-ci ildə təşkil edilmişdir. Aqroparkının fəaliyyəti üçün 1964 hektar ərazi ayrılmışdır və bu ərazinin 1961 hektarı (99,8%) ümumi əkinə yararlı sahələr olmaqla əkinçilik (toxumçuluq) təyinatlı olmuşdur. Həmçinin bu aqroparka 70 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da, 50 nəfər faktiki işçi sayı mövcuddur. Şamaxı rayonu ərazisində yaradılmış "Agro Dairy" MMC (Hacıqabul və Şamaxı) aqroparkı 2014-cü ildə yaradılmış və fəaliyyəti üçün 41234,52 hektar ərazi ayrılmışdır ki, bunun da 38866,9 hektarı (0,94%) əkinə yararlı olmaqla əkinçilik təyinatlı olmuşdur. Bu aqroparkda isə, 200 nəfərin işlə təmin olunması nəzərdə tutulsa belə 224 nəfərin işlə təmin olunması həyata keçirilmişdir. "Azersun Şamaxı Aqropark" (Hacıqabul və Şamaxı) aqroparkı isə, 2013-cü ildə təşkil edilmişdir ki, bu aqroparkın fəaliyyəti üçün 4348 hektar ərazi ayrılmış və bu ərazinin 4098 hektarı (94,2%) əkinə yararlı sahələr olmaqla heyvandarlıq (südlük), əkinçilik və yem istehsalı təyinatlı yaradılmışdır. Bu aqroparkdada 200 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 169 nəfər işlə təmin edilmişdir. Şamaxı rayonu ərazisində "Agro Fresh" MMC aqroparkı isə, 2017-ci ildə təşkil edilmişdir ki, bu aqroparkın fəaliyyəti üçün 1494,79 hektar ərazi ayrılmış və bu ərazinin 1435 hektarı (96%) əkinə yararlı sahələr olmaqla heyvandarlıq (südlük) və əkinçilik təyinatlı yaradılmışdır. Bu aqroparkdada 45 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 21 nəfər işlə təmin edilmişdir. İsmayıllı rayonu ərazisində isə "Buta-Group" MMC aqroparkı 2016-cı ildə yaradılmışdır ki, bu aqroparkın fəaliyyəti üçün 608 hektar ərazi ayrılmış və bu ərazinin 420 hektarı (69,1%) əkinə yararlı sahələr olmaqla əkinçilik, qablaşdırma və çeşidləmə təyinatlı yaradılmışdır. Bu aqroparkdada 120 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 39 nəfər işlə təmin edilmişdir.

Dağlıq Şirvan iqtisadi rayonu üzrə isə, ümumiləşdirilmiş şəkildə qeyd edə bilərik ki, bu iqtisadi rayonun ərazisində aqroparkların formalaşdırılması üçün 56701,5 hektar ərazi ayrılmış və bu ərazinin 53277,9 hektarı (93,96%) əkinə yararlı sahələr olmuşdur. Bu rayonda isə aqroparkların fəaliyyəti sahələri isə heyvandarlıq (ətlik və südlük) və əkinçilik (toxumçuluq), yem istehsalı,

qablaşdırma və çeşidləmə sahələri olmuşdur. Həmçinin iqtisadi rayon ərazisində yaradılan aqroparklarda 965 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da, 847 nəfər işlə təmin edilmişdir. Dağlıq Şirvan iqtisadi rayonunda yaradılmış aqroparkların fəaliyyət sahəsi seçilən zaman regionun ixtisaslaşması amili nəzərə alınmışdır. Belə ki, görürük ki, 2015-ci illə müqayisədə 2020-ci ildə dənlilər və dənli paxlalıların istehsalında 1,02 dəfə, buğda istehsalında 1,13 dəfə, kartof istehsalı 1,42 dəfə, meyvə və giləmeyvə məhsullarının istehsalında 1,18 dəfə, üzüm istehsalı 1,54 dəfə, ət (kəsilmiş çəkidə) 1,01 dəfə, süd istehsalında 1,16 dəfə artım olmuş və pambıq və tütün istehsalı formalaşdırılmışdır. Bunların əksi olaraq isə şəkər çuğunduru istehsalında 2,08 dəfə, dən üçün günəbaxan istehsalında 26,9 dəfə, tərəvəz istehsalında 1,15 dəfə, bostan məhsulları istehsalında 2,31 dəfə, yun(fiziki çəkidə) istehsalında 1,03 dəfə azalma olmuşdur. Bu azalmalırn isə əsas səbəbi olaraq bu növ məhsulların əkinin üçün müvafiq dövrlərdə daha az ərazinin ayrılmasını qeyd edə bilərik. Çünki, sahibkarlıq bazarın biznes prinsiplərinə uyğun olaraq əkinçilik üçün olan ərazilərdə fərqli dövrlərdə fərqli növ məhsulların əkilməsini həyata keçirirlər. Dağlıq Şirvan iqtisadi rayonunda məşğulluğa müsbət təsir etmişdir. Belə ki, aqroparkların fəaliyyəti nəticəsində 847 nəfər işlə təmin olunmuşdur ki, 2020-ci ilin statistikasına əsasən bu göstərici iqtisadi rayonun məşğul əhalisinin 0,56%-ni təşkil etmişdir. Bu isə məşğulluğa təsirin faiz etibarı ilə az olmasına baxmayaraq gələcəkdə yeni imkanların nəzərə alınmasını şərtləndirir.

Üçüncü olaraq isə, Gəncə-Daşkəsən iqtisadi rayonu ərazisində yaradılmış aqroparkların siyahısına diqqət yetirək. Bildiyimiz kimi bu iqtisadi rayon Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarını əhatə edir. Bu iqtisadi rayonda yaradılan aqroparkların coğrafiyası Goranboy və Samux rayonlarını əhatə edir. Goranboy və Samux rayonlarının hər ikisinin ərazisini əhatə edən "Region Agro" MMC 2016-cı ildə yaradılmışdır və aqroparkın fəaliyyəti üçün 5205 hektar ərazi ayrılmışdır və bu ərazinin 4695 hektarı (90,2%) əkinə yararlı ərazilər olmaqla əkinçilik, bağçılıq və toxumçuluq təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 200 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 100 nəfər işlə təmin edilmişdir. Növbəti olaraq isə, bir hissəsi Samux rayonunun ərazisində formalaşdırlan "Agro Dairy" MMC-ni (Tovuz və Samux) aqroparkını qeyd edə bilərik. Bu aqropark isə, 2014-cü ildə 17006,51 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 15938,86 hektarı (93,7%) əkinə yararlı sahələr olmaqla əkinçilik təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 667 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 584 nəfər işlə təmin edilmişdir. Ümumilikdə isə bu iqtisadi rayonda aqroparkların formalaşdırılması üçün 22211,51 hektar ərazi ayrılmışdır və bu ərazinin isə 20633,86 hektarı (92,9%) isə əkinə yararlı torpaqlar olmuşdur. Həmçinin bu aqroparklarda 867 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 684 nəfər işlə təmin edilmişdir.

Gəncə-Daşkəsən iqtisadi rayonunda yaradılmış aqroparkların fəaliyyət sahəsi seçilən zaman regionun ixtisaslaşması amili nəzərə alınaraq əsasən əkinçilik, bağçılıq və toxumçuluq təyinatlı aqroparklar ilkin mərhələdə yaradılmışdır. Belə ki, görürük ki, 2015-ci illə müqayisədə 2020-ci ildə dənlilər və dənli paxlalıların istehsalında 1,37 dəfə, buğda istehsalında 1,12 dəfə, pambıq istehsalı 23,4 dəfə, şəkər çuğunduru istehsalı 1,09 dəfə, dən üçün günəbaxan istehsalı 1,69 dəfə, tərəvəz istehsalı 1,41 dəfə, bostan məhsulları istehsalı 1,05 dəfə, meyvə və giləmeyvə məhsullarının istehsalı 1,27 dəfə, üzüm istehsalı 1,45, süd istehsalında 1,2 dəfə, yumurta istehsalında 1,47 dəfə artım olmuş və tütün istehsalı formalaşdırılmışdır. Bunların əksi olaraq isə kartof istehsalında 1,3 dəfə, ət (kəsilmiş çəkidə) istehsalında 1,06 dəfə, yun (fiziki çəkidə) istehsalında isə 1,6 dəfə azalma olmuşdur. Kənd təsərrüfatının bir çox məhsullarının istehsalında artımın olmasına əsasən qeyd edə bilərik ki, aqroparkların fəaliyyəti regionun istehsal imkanlarının səmərəliliyinin artırılmasına müsbət təsir göstərmişdir.

Dördüncü olaraq isə, Qarabağ iqtisadi rayonu ərazisində yaradılmış aqroparkların siyahısına diqqət yetirək. Bildiyimiz kimi bu iqtisadi rayon Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edir. Bu iqtisadi rayonda yaradılan aqroparkların coğrafiyası Ağcabədi və Füzuli rayonlarını əhatə edir. Digər rayonlardada bu təcrübənin tətbiq olunmasının gələcəkdə tətbiqi nəzərdə tutulur ki, bu iqtisadi rayonun tərkibində olan ərazilərin əksəriyyəti son zamanlarda işğaldan azad olunmuşdur və gələcək inkişaf üçün işlər layihələndiriləcəkdir. İlk olaraq Ağcabədi rayonu ərazisində yaradılmış aqroparklara "Ağcabəditaxıl" MMC-ni, "Əkinçi-BO Fermer Təsərrüfatı" MMC-ni, "Qarabağ Taxıl" MMC-ni aid etmək olar.

"Ağcabəditaxıl" MMC 2016-cı ildə yaradılmışdır və aqroparkın fəaliyyəti üçün 3000 hektar ərazi ayrılmışdır və bu ərazinin 2700 hektarı (90%) əkinə yararlı ərazilər olmaqla əkinçilik və bağçılıq təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 300 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 41 nəfər işlə təmin edilmişdir. Növbəti olaraq isə, "Əkinçi-BO Fermer Təsərrüfatı" MMC-ni aqroparkını qeyd edə bilərik. Bu aqropark isə, 2016-cı ildə 4800 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 4650 hektarı (96,9%) əkinə yararlı sahələr olmaqla əkinçilik təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 50 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 25 nəfər işlə təmin edilmişdir. "Qarabağ Taxıl" MMC isə Ağcabədi, Beyləqan, Ağsu və Kürdəmir rayonlarını əhatə etdiyi üçün ətraflı qeydi Dağlıq Şirvan iqtisadi rayonunun təhlili zamanı qeyd etmişik. Füzuli rayonu ərazisində isə, "Natural Aqro" MMC-ni qeyd etmək olar. Bu aqropark 2016-cı ildə 2700 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 2644 hektarı (97,9%) əkinə yararlı sahələr olmaqla əkinçilik və bağçılıq təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 90 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 26 nəfər işlə təmin edilmişdir. Ümumilikdə isə iqtisadi rayonda aqroparkların formalaşdırılması üçün 15788,3 hektar ərazi ayrılmışdır və bu ərazinin isə 15244 hektarı (96,6%) isə əkinə yararlı torpaqlar olmuşdur. Həmçinin bu aqroparklarda 570 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 243 nəfər işlə təmin edilmişdir.

Qarabağ iqtisadi rayonunda yaradılmış aqroparkların fəaliyyət sahəsi seçilən zaman regionun ixtisaslaşması amili nəzərə alınaraq əsasən əkinçilik və bağçılıq təyinatlı aqroparklar ilkin mərhələdə yaradılmışdır. Beləki, görürük ki, 2015-ci illə müqayisədə 2020-ci ildə dənlilər və dənli paxlalıların istehsalı 1,07 dəfə, buğda istehsalı 1,12 dəfə, pambıq istehsalı 14,8 dəfə, dən üçün günəbaxan istehsalı 2,12 dəfə, tərəvəz istehsalı 1,99 dəfə, meyvə və giləmeyvə məhsullarının istehsalı 1,57 dəfə, üzüm istehsalı 1,12 dəfə, ət (kəsilmiş çəkidə) istehsalı 1,21 dəfə, süd istehsalı 1,31 dəfə, yumurta istehsalı 1,47 dəfə artmışdır. Bunların əksi olaraq isə şəkər çuğunduru istehsalı 1,8 dəfə, kartof istehsalı 1,3 dəfə, bostan məhsulları istehsalı 1,04 dəfə, yun (fiziki çəkidə) istehsalı isə 1,15 dəfə azalmışdır. Kənd təsərrüfatının bir çox məhsullarının istehsalında artımın olmasına əsasən qeyd edə bilərik ki, aqroparkların fəaliyyəti regionun istehsal imkanlarının səmərəliliyinin artırılmasına müsbət təsir göstərmişdir. İşğaldan azad olunmuş ərazilərin inkişaf potensialı da, bu iqtisadi rayonun səmərəliliyinin yüksəldilməsinə müsbət təsir edəcəkdir. Qarabağ iqtisadi rayonunda yaradılan aqroparklar məşğulluğa da müsbət təsir etmişdir. Belə ki, aqroparkların fəaliyyəti nəticəsində 243 nəfər işlə təmin olunmuşdur ki, 2020-ci ilin statistikasına əsasən bu göstərici iqtisadi rayonun məşğul əhalisinin 0,06%-ni təşkil etmişdir. Bu isə məşğulluğa təsirin faiz etibarı ilə az olmasına baxmayaraq gələcəkdə yeni imkanların nəzərə alınmasını şərtləndirir.

Beşinci olaraq isə, Qazax–Tovuz iqtisadi rayonu ərazisində yaradılmış aqroparkların siyahısına diqqət yetirək. Bildiyimiz kimi bu iqtisadi rayon Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarını əhatə edir. Bu iqtisadi rayonda yaradılan aqroparkların coğrafiyası Şəmkir, Ağstafa, Qazax və Tovuz rayonlarını əhatə edir. İlk olaraq Şəmkir rayonu ərazisində yaradılmış aqroparkları "Azərşəkər" MMC-ni, "Şəmkir Aqropark" MMC-ni qeyd etmək olar. "Azərşəkər" MMC 2018-cı ildə yaradılmışdır və aqroparkın fəaliyyəti üçün 8000 hektar ərazi ayrılmışdır və bu ərazinin 4000 hektarı (50%) əkinə yararlı ərazilər olmaqla əkinçilik təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 160 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 69 nəfər işlə təmin edilmişdir. Növbəti olaraq isə, "Şəmkir Aqropark" MMC-ni qeyd edə bilərik. Bu aqropark isə, 2014-cü ildə 604,95 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 591 hektarı (97,7%) əkinə yararlı sahələr olmaqla intensiv bağçılıq, çeşidləmə, qablaşdırma və logistika təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 125 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 95 nəfər işlə təmin edilmişdir. Ağstafa rayonu ərazisində isə "Ağstafa Aqrar Sənaye Kompleksi" MMC isə 2010-cu ildə 2914,6 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 2880 hektarı (98,81%) əkinə yararlı sahələr olmaqla əkinçilik, taxıl emalı, çörək və qənnadı məhsullarının istehsalı təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 350 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 296 nəfər işlə təmin edilmişdir. Tovuz rayonu ərazisində "Tovuz Aqro" MMC isə 2017-ci ildə 550 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 430 hektarı (78,18%) əkinə yararlı sahələr olmaqla ətlik istiqamətli heyvandarlıq və əkinçilik təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 220 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 73 nəfər işlə təmin edilmişdir. "Tovuz Aqrokompleks" MMC isə 2018-ci ildə 484 hektar ərazidə yaradılmışdır. Bu ərazinin isə 468 hektarı

(96,7%) əkinə yararlı sahələr olmaqla əkinçilik və bağçılıq təyinatlı olmuşdur. Həmçinin bu aqroparkda 55 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 22 nəfər işlə təmin edilmişdir. "İnvestel Group" MMC isə Qazax və Abşeron rayonlarını əhatə etdiyi üçün ətraflı qeydi Abşeron-Xızı iqtisadi rayonunun təhlili zamanı qeyd etmişik. İqtisadi rayonda aqroparkların formalaşdırılması üçün 13594,71 hektar ərazi ayrılmışdır və bu ərazinin isə 9399,6 hektarı (69,1%) isə əkinə yararlı torpaqlar olmuşdur. Həmçinin bu aqroparklarda 980 nəfərin işlə təmin olunması nəzərdə tutulsa da 675 nəfər işlə təmin edilmişdir. Qazax-Tovuz iqtisadi rayonunda yaradılmış aqroparkların fəaliyyət sahəsi seçilən zaman regionun ixtisaslaşması amili nəzərə alınmışdır. Beləki, görürük ki, 2015-ci illə müqayisədə 2020-ci ildə dənlilər və dənli paxlalıların istehsalı 1,27 dəfə, buğda istehsalı 1,23 dəfə, şəkər çuğunduru istehsalı 70,4 dəfə, dən üçün günəbaxan istehsalı 1,52 dəfə, kartof istehsalı 1,31 dəfə, tərəvəz istehsalı 2,1 dəfə, meyvə və giləmeyvə məhsullarının istehsalı 1,6 dəfə, üzüm istehsalı 1,37 dəfə, ət (kəsilmiş çəkidə) istehsalı 1,13 dəfə, süd istehsalı 1,06 dəfə artmış və tütün istehsalı formalaşmışdır. Bunların əksi olaraq isə bostan məhsulları istehsalı 1,22 dəfə, yumurta istehsalı 1,43 dəfə, yun (fiziki çəkidə) istehsalı isə 1,003 dəfə azalmışdır. Kənd təsərrüfatının bir çox məhsullarının istehsalında artımın olmasına əsasən qeyd edə bilərik ki, aqroparkların fəaliyyəti regionun istehsal imkanlarının səmərəliliyinin artırılmasına müsbət təsir göstərmişdir. Qazax-Tovuz iqtisadi rayonunda yaradılan aqroparklar məşğulluğa da müsbət təsir etmişdir. Belə ki, aqroparkların fəaliyyəti nəticəsində 675 nəfər işlə təmin olunmuşdur ki, 2020-ci ilin statistikasına əsasən bu göstərici iqtisadi rayonun məşğul əhalisinin 0,2%-ni təşkil etmişdir. Bu isə məşğulluğa təsirin faiz etibarı ilə az olmasına baxmayaraq gələcəkdə yeni imkanların nəzərə alınmasını şərtləndirir.

**Nəticə**

Beləliklə, beş iqtisadi rayon üzrə aqroparkların formalaşdırılması istiqamətində aşağıda qeyd olunan amillər və xüsusiyyətlər ön plana çıxacaqdır: Abşeron-Xızı iqtisadi rayonu üçün texnopolisin yaradılmasını və əkinçilik, heyvandarlıq, logistika və qablaşdırma fəaliyyətinin təşkilinin formalaşdırılmasını və təkmilləşdirilməsini təklif edə bilərik; Dağlıq Şirvan iqtisadi rayonunda beynəlxalq təcrübə nəzərə alınaraq əlavə olaraq Qobustan tarixi qoruğu ilə bağlı turizm potensialı nəzərə alınmaqla Qobustan rayonunun kəndli həyat tərzini nümayiş etdirən aqropark modelinin yaradılmasını təklif edə bilərik; Gəncə-Daşkəsən iqtisadi rayonunda elm və texnologiya potensialı nəzərə alınaraq burada texnopolisin yaradılması, turizm potensialı nəzərə alınaraq burada isə kəndli həyat tərzini nümayiş etdirən aqropark modelinin yaradılması təmin edilə bilər; Qarabağ iqtisadi rayonu ərazisinin potensial imkanları nəzərə alınaraq əkinçilik, meyvəçilik, heyvandarlıq və logistika təyinatlı aqroparkların yaradılması təklif edə bilərik; Qazax–Tovuz iqtisadi rayonu ərazisində kəndli həyat tərzini nümayiş etdirən aqropark modelinin və əkinçilik və heyvandarlıq təyinatlı aqroparkların yaradılması təmin edilə bilər.

**Ədəbiyyat**

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Bakı, 06 dekabr 2016-cı il.
2. Azərbaycan Respublikası Prezidentinin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına dair həsr olunmuş konfransda nitqi. Bakı, 29 yanvar 2019-cu il. https://president.az/articles/31713
3. Azərbaycanın statistik göstəriciləri 2021.
4. İbrahimov İ.H. "Aqrar sahənin iqtisadiyyatı". Bakı, 2016-cı il.655s
5. https://president.az/az/articles/view/54716
6. www.stat.gov.az
7. www.economy.gov.az
8. http://agro.gov.az/az
9. http://senaye.gov.az/az/senaye_zonalari/parks/sumgayit_kimya/
10. www.azexport.az
11. http://agrodata.az
12. Novikov Ivan Sergeevich, "Formation and functioning of innovative integrated structures(Agrotechnoparks) in the system", dissertation, Saratov, 2016, 195p
13. Olga Lucia Arciniegas, "The case of Agrosfera in Aguascalientes", Mexico, 2013, 86p
14. Lilianne Laan, "İnstitutional challenges in the development and realization of Agroparks", dissertation, Netherlands, 2009, 48p

***Эльшан Эллаз оглы Исмаилов***

***Текущее состояние эффективности агропарков, созданных в Абшерон-Хызинском, Нагорно-Ширванском, Гянджа-Дашкесанском, Карабахском и Газах-Товузском экономических районах.***

***Резюме***

*Цель исследования - изучить направления и приоритеты развития агропарков в регионах в современное время. Мы знаем, что в 11 экономических районах страны ведутся значительные строительные работы в аграрной сфере, и роль агропарков в этой работе важна. Обоснована важность поддержки государством и частным сектором формирования агропарков с точки зрения регионального развития. С точки зрения его роли в развитии ненефтяного сектора рассмотрены эффективность и приоритеты агропарков. Даны рекомендации и предложения по формированию агропарков на освобожденных территориях в контексте регионального развития в перспективе. Методология исследования - анализ и синтез, методы сравнения, а также теоретико-методологические подходы к разработке действующих механизмов и стратегических подходов к формированию агропарков, а также положения в работах ученых и исследователей по этим проблемам. Актуальность исследования - изученные научно-практические результаты могут быть использованы при разработке и применении новых программ и мероприятий по улучшению с целью повышения и интенсификации эффективности деятельности агропарков в республике. Результаты исследования - связаны с разработкой и применением более эффективных и продуктивных механизмов создания агропарков в республике с учетом потенциала освобожденных территорий в будущем. Оригинальность и научная новизна исследования - материалы, представленные в исследовании, позволяют представить современное состояние формирования агропарков в нашей стране, в связи с чем оригинальность не вызывает сомнений. Основная научная инновация заключается в обосновании важности новых подходов к формированию агропарков с современной призмы и задач, особенно с приоритетов возрождения освобожденных территорий, приоритетов совершенствования основных механизмов агропарковой деятельности в стране. Также была подчеркнута важность разработки более эффективных и продуктивных механизмов действий, отражающих международные вызовы, связанные с формированием агропарков. Исходя из объективных реалий по этим вопросам подготовлены соответствующие предложения и даны рекомендации.*

***Ключевые слова**: агропарк, освобожденные территории, Абшерон-Хызинский экономический район, Горно-Ширванский экономический район, Гянджа-Дашкесанский экономический район, Карабахский экономический район, направления формирования агропарков, перспективы развития регионов.*

***Elshan Ellaz Ismayilov***

***Current state of efficiency of agro-parks established in Absheron-Khizi, Mountainous Shirvan, Ganja-Dashkesan, Karabakh and Gazakh-Tovuz economic regions.***

***Summary***

*The purpose of the study is to study the development directions and priorities of agro-parks in the regions in modern times. We know that in 11 economic regions of the country, significant construction work is being carried out in the agricultural sector, and the role of agro-parks in this work is important. The importance of public and private sector support for the formation of agro-parks in terms of regional development is justified. In terms of its role in the development of the non-oil sector, the efficiency and priorities of agro-parks were considered. Recommendations and proposals were made on the formation of agro-parks in the liberated territories in the context of regional development in the future. Research methodology - analysis and synthesis, comparison methods, as well as theoretical and methodological approaches to the development of current mechanisms and strategic approaches to the formation of agro-parks, as well as provisions in the works of scientists and researchers on these problems. Significance of the application of the research - the researched scientific-practical results can be used in the development and application of new programs and improvement measures in order to increase and intensify the efficiency of the agro-park activity in the Republic. The results of the study are related to the development and application of more efficient and productive mechanisms for the creation of agro-parks in the Republic, taking into account the potential of the liberated territories in the future. Originality and scientific novelty of the research - the materials provided in the research allow us to imagine the current state of formation of agro-parks in our country, and therefore the originality is not in doubt. The main scientific innovation is to substantiate the importance of new approaches to the formation of agro-parks from modern prisms and challenges, especially from the priorities of reviving the liberated territories, the priorities of improving the main mechanisms of agro-park activities in the country. The importance of developing more effective and productive mechanisms of action, reflecting the international challenges related to the formation of agro-parks, was also highlighted. Approaching from the objective realities on these issues, relevant proposals have been prepared and recommendations have been made.*

***Keywords:** agro-park, liberated territories, Absheron-Khizi economic region, Mountainous Shirvan economic region, Ganja-Dashkesan economic region, Karabakh economic region, directions of formation of agro-parks, development prospects of the regions.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 11.07.2022.***
***Çapa qəbul olunub: 18.07.2022.***